Bədii tərcümə məsələləri: real mənzərə və problemlər

Elnarə Akimova: - Əvvəla, hər kəsi salamlayırıq, xoş gəldiniz. Bu gün bədii tərcümənin problemlərindən danışmağa qərar verdik. Hazırda ən çox dartışılan problemdi bədii tərcümə. İstənilən saytda, qəzetdə daim aktuallaşır. Və daha çox şikayət, narazılıq kontekstində, nəqativ yöndən. İstədim bilən, bir tərcüməçi olaraq bu narazılıqlar sizlərə necə təsir edir? Haqlı narazılıqdımı, yoxsa kənardan danışmaq asan görünür? İlqar müəllim, istərdim sizdən başlayaq.

İlqar Əlfi: - Bilirsiniz, irad eləmək, qüsur tutmaq yer üzündə ən asan şeydir.

Elnarə Akimova: - Bəli, həm də iş olan yerdə mütləq qüsur da olacaq.

İlqar Əlfi: - Bəli, bəli. Tərcüməni mən xüsusi qüsurlu sahələr sırasına aid eləmirəm. Mövcud imkanlar çərçivəsində nə tərcümə olunursa, tərcüməçilərə eşq olsun! Konkret problemlərə keçmək istəyirəm. Bir - tərcümənin layiq olduğu maddi qiyməti verilmir. İki - tərcümə tərcüməçinin istədadına yox, adına verilir. Üç - yaxşı tərcüməçi qala-qala pisə də verə bilirlər. Bunlar hamısı qüsurlardır. Amma bununla belə, bizim dünyaya açılan pənəcərəmizdir tərcümə. Əgər kimsə əsər tərcümə edirsə və o kitabı ərəbcə gətirirsə, bu özü böyük işdir.

Elnarə Akimova: - İlqar müəllim, siz Tərcümə Mərkəzini təmsil edirsiniz də.

İlqar Əlfi: - Yox, təmsil eləmirəm. Mən tərcüməçi kimi gəlmişəm.

Elnarə Akimova: - Orada işləyirsiniz amma.

İlqar Əlfi: - Bəli, orada işləyirəm, amma oranı təmsil eləmirəm.

Elnarə Akimova: - Bilirsiniz, niyə soruşuram? Əvvəllər şikayət sahələndə tez-tez belə bir fikir vurğulanırdı ki, müəyyən tərcümə qurumumuzun, mərkəzimizin olmaması tərcümə sahəsində ərbəşmalığın olmasına gətirib çıxarır. İndi bu qurum yaranandan sonra konkret hansı dəyişikliklər oldu, bədii tərcümə sahəsində aparılan islahatlar hansı istiqamətdərdə həyata keçirilir?

İlqar Əlfi: - Bilirsiniz, qurumun yaranması ən azından ən bəsit şəkildə götürsək, bir uşağın dünyaya gəlməsi kimi bir şeydir: doqquz ay bətnda yatır, sonra dünyaya gəlir, sonra başlayır dünyanı tanımağa, özünü tanımağa, ata-anasını tanımağa, danışmağa, öyrənməyə, filan. Ondan sonra 6-7 yaşına çatanda sən o uşaqdan verdiyin suala cavab ala bilirsən. Tərcümə təsərrüfatı sovet dövründə müəyyən ənənələri, çox basit ənənələri olmuş bir təsərrüfatdır. Demək olar ki, sovet dövründə xüsusi tərcümə-çilik institutu vardı, xüsusi bir struktur vardı. Yox, yazıçılar tərcümə eləyirdi. İndi də təxminən ələ bir şeydir. Amma indi bir balaca ixtisaslı tərcüməçilər, peşəkar tərcüməçilər var. Bu prosesi, yəni qurum şəklində bu prosesi nəzarətə götürmək çox çətin məsələdir, özünüz bilirsiniz. Çünki bir tərəfdən kimlərinsə azadlığını məhdudlaşdırmalı olarsan,yəni mənə bir qurum olaraq desələr ki, biz lisenziya veririk, nəşrlə piyada tərcüməçi danışacaq, nəşrin haqqıdır, tərcüməçinin də haqqıdır, çap eləyəcək, qurtarıb gedəcək, əndən lisenziya da istəməyəcək. Ona görə də bunlara nəzarət eləmək yox, sadəcə normal nümunələr ortaya qoymaq lazımdır ki, yəni bir örnək kimi. Bu camaat da ona uzlaşsın, ona yaxınlaşsın, ona can atsın. Mən bəzi ki, tərcümə mərkəzini burada təmsil eləmiram, məni buraya tərcüməçi kimi çağırıblar. Sırf tərcüməçilərə aid olan problemlərlə bağlı nə sualınız olsa, cavab verə bilərəm.

Elnarə Akimova: - Vilayət müəllim, belə fikir formalaşıb ki, müasir Azərbaycan bədii tərcümə məktəbi sosrealizmin bəhrəsidir. Yani XX əsrin 39-40-cı illərindən başlayır. Ümumiyyətlə, tərcüməçinəsliyin bir elm kimi təsbit olunması istiqamətində hansı addımlar atılıb, yəni, bir halda ki, tərcümə də digər sənət sahələri kimi yaradıcılıq işidir, özü də bəlkə digərlərindan daha artıq məsuliyyət və gərgin əmək tələb edən yaradıcılıqdır, o zaman bir sənət növü kimi elmi cəhətdən əsaslandırılmış nəzəri bazaya malik olması üçün ümumi tərcümə nəzəriyyəsi yaranıbmı? Bizdə nəzəri bazaya malik olan bir tərcümə nəzəriyyəsi formalaşıbmı, sizcə?

Vilayət Hacıyev: - Bu nəzəriyyənin yaranması üçün məktəb lazımdır. Tərcümə məktəbinin fəaliyyəti əsasında müəyyən nəzəri hissə işləmək olardı. Ancaq təəssüf ki, mən fikrimdə ola bilsin səhv edirəm, bizdə tərcümə məktəbi hələ yeni-yeni formalaşmağa başlayıb. Bizdə olmayıb. Ruslardakı kimi, lap də götürək gürcüləri. Gürcülərdə bu məktəb artıq formalaşıb. Ona görə də o məktəbin fəaliyyəti sayəsində müəyyən nəzəri problemləri də işləmək olar. Ümumiyyətlə, nəzəriyyə nəzəriyyədir. İstər rus məktəbində olsun, gürcü məktəbində olsun, Azərbaycan məktəbində olsun. Ona görə də demək olmaz ki, bizdə tərcümə nəzəriyyəsi yoxdur. Ümumi şəkildə qəbul olunmuş nəzəriyyədən biz də istifadə edirik. Sadəcə olaraq mən deyərdim ki, bizdə tərcümə məktəbi yoxdur. Və yavaş-yavaş mənə belə gəlir ki, bu yaranmağa başlayır. Mən bir dəfə də "Aydın yol" qəzetində müsahibədə demişdim ki, bizdə tərcümə tənqidi yoxdur. Tərcümə tənqidi olmadığı üçün də tərcümə məktəbinin fəaliyyətini tənzimləmək mümkün deyil. Mən İrədə xanımın bu sahədə fikirlərini həmişə oxuyuram, Kamran müəllim hərdənbir, görürsən ki, bu məsələyə münasibətini bildirir və s. Bunlar konkret bir müəyyən istiqamətə yönəlməmiş yazılardır.

Elnarə Akimova: - Düzdür. Seyfəddin müəllim də yazmışdı silsilə yazılar... Amma sistemli xarakter daşımır bu istiqamətdəki fəaliyyət.

Vilayət Hacıyev: - Və sistemli xarakter daşımadığı üçün bizim tərcümə təsərrüfatımızın özündə də sistemsizlik var. Bayaq İlqar müəllim dedi. Düzdür, mən də bu fikirlə razıyam ki, burada nəyisə tənzimləmək bir qədər çətindir, çünki biz kiminsə hüququna girmiş olarıq. Nəşriyyatdır, nəşriyyatın necə deyərlər, biznes maraqları var, kommersiya maraqları var, o istəyir ki, kitabları çıxsın və bizə lazım olmayan kitabları o verə bilər, tutaq ki, bulvar ədəbiyyatı daha tez alınır, dedektiv ədəbiyyat daha tez satılır. Və onun da maraqları var. Burada da kim ucuz tərcümə eləyir, tez tərcümə eləyir, şübhəsiz, onlarla müqavilə bağlayır ki, şərfəli olsun. Ona görə də kiməsə irad tutmaq çətindir ki, niyə belə eləmisən? Ancaq bir şey də var ki, bu sistemsizliyin özündə də mənə belə gəlir ki, nə isə bir xeyir var, heç olmasa tədricən, ələnə-ələnə bu məktəb yaranmağa başlayır. Ən azından məni sevindirən budur ki, vaxtilə ad ilə konkret demək olar ki, kimlər tərcümə ilə məşğul olurdu. Tanımış yazıçılar tərcümə ilə məşğul olurdu. Ancaq indi, məsələn, cavanlarımızın çoxu tərcümə ilə məşğul olur. Mənə belə gəlir ki, bəzilərinə çox uğurlu alınır. Elə adi bir şeyi deyim ki, məsələn, Fərid, yadındadırsa, o tərcümə müsabiqəsi təşkil olunanda tərcümə mərkəzində birinci mükafatı 4-cü kurs tələbəsi almışdı - Təxminən fikriniz belə oldu.

Vilayət Hacıyev: - Hə, təxminən belə oldu. Ancaq, üzr istəyirəm, İrədə xanım, bir söz deyə bilmərik, yəni əlbəttə biz öz fikrimizi bildirmaliyik. O mənada yox, yəni çəpərləyə bilmərik onu.

İrədə Musayeva: - Tutaq ki, ədəbiyyat adına Knut Hamsun tərcümə olunursa, mən bir oxucu kimi gedib onu oradan alıb, onu dünya ədəbiyyatı nümunəsi kimi (fərqi yoxdur, mən maraqlanmıram ki, onu "Qanun" nəşriyyatı çap eləyib, yoxsa Tərcümə Mərkəzinin işidir, yoxsa Yazıçılar Birliyinin Tərcümə şöbəsinin işidir), oxuyur və heç bir mənə-mazmun ya estetik yarılıq hiss etmiramsə, yəni oxucu kimi mənim zövqüm korlanırsa, düzdürmü, mənim dünya ədəbiyyatı ilə tanışlığımda bu problemi kimsə yaradırsa, deməli, mütləq burada bir günahkar var. Yəni söhbət ondan getmir ki, hansısa bir qanun məcəlləsi ilə gedilə o adamın üstünə ki, sən bunu niyə çap eləmisən və niyə bu şəkildə çap eləmisən? Amma hər halda, ədəbiyyat adına, tutaq ki, siz də və ya başqa tərcüməçilər də gözəl bilirsiniz ki, bu tərcümə yararsızdır - amma əhəmiyyət verilmir... Çox düz dediniz ki, tərcümə tənqidçiliyi bir peşə kimi formalaşmalıdır. Bu yoxdur. Sözün yaxşı mənasında, senzura da yoxdur, sonra... redaktor məsələsi də yox kimidir, çünki çox vaxt şərti, simvolik xarakter daşıyır, bu redaktorluq məsələsi... Tərcüməçilər bilir ki, mənəvi məsuliyyət bildirilməyəcək, çünki hamı susur. Oxucunu isə tərcümənin, fərqi yoxdur, kitabın problemləri, cəfası yox, səfası düşündürür. Tərcümənin nəzəriyyəsi ilə praktikası arasında böyük bir uçurum var. Siz tədrisdə işləyirsiniz, çox gözəl bilirsiniz ki, yəni o nəzəri cəhətdən tədris metodik vəsaitlər nə vəziyyətdədir, dövlət standartları nə vəziyyətdədir, kurs işlərinin, diplom işlərinin yazılması vəziyyəti hansı keyfiyyət göstəriciləri əsasında aparılır... Tədris sahəsinə az-çox bələd bir adam kimi mən də çox görmüşəm ki, ingilis dili və ya tərcüməçilik fakültəsində oxuyan tələbə ingilis dilində bir kitab oxumadan belə o diplomu alır. Yani orada, o sahədə - nəzəriyyə məsələsi sahəsində də vəziyyət bəlidir. Üstəgəl onların bir qismi, böyük əksəriyyəti xaricdə oxumağa gedir, bir qismi biznes tərcüməçiliyi ilə məşğul olur. Yani o ədəbiyyat sevgisi ilə gələn adamlar ki, "mən dünya ədəbiyyatını çox gözəl şəkildə tərcümə edib gətirəcəyəm arəsaya" - deyib gəlirlər tərcüməyə, bu çox təkcə hallarda ola bilər. Yani tədris da nəzəri cəhətdən belədir. Bununla da praktika arasında çox böyük boşluq var. Bu gün ədəbi qurumların çoxunda, istər Tərcümə Mərkəzində, istər Yazıçılar Birliyində, ya hansısa universitetdə və ya saytlarda tez-tez tərcümə müzakirələri gedir. Amma hər dəfə də eyni adamlar elə eyni problemləri sayır. Demək olar ki, eyni adamlar eyni problemlərdən danışırlar. Eyni problem: Birinci dil məsələsi, ikinci dil məsələsi, tərcümədəki özbaşınalıqlar - filan... Amma bunun həlli üçün, məsələn, nələr etmək olar, bu gün müzakirədə də yaşqın ki, buna toxunacağıq. Çox arzu edirəm ki, nəticəli bir müzakirə olsun, professional tərcüməçilər dəvət olunub buraya, yəni inandığımız adamları dəvət ediblər ki, bir çıxış yolu tapılsın. Yani təkcə eyiblərı göstərmək üçün yox, eyiblər - ən azından tərcümələrdən götürdüyüm, hatta afsanəvilaşdırdıyımız tərcüməçilərdən götürdüyüm eybəcər tərcümə nümunələridir ki, bunları saymaq asandır. Amma inkişafın və tərcümə intibahımızın yolunu bu mütəxəssislər nədə görür? Hansı addımlar atılsa, nələr eləmək olar? O müzakirələrdə, məsələn, Tərcümə Mərkəzinin tərcümə söhbətlərindən, müzakirələrindən sonra hansı nəzari qanunlar toplusu ərsəyə gəlib? Bayaq İlqar müəllim dedi ki, mən oranı təmsil elə-

İlqar Əlfi: - - Ola bilər. Üzr istəyirəm, proloq əsərin girişidir.

İrədə Musayeva: - Mətnin girişi tamam başqa bir şeydir. Mətnin girişi ekspozisiyadır.

İlqar Əlfi: - Ön sözü başqa adam da yaza bilər, müəllif özü də yaza bilər.

İrədə Musayeva: - O ön sözün tərcüməsində də hatta çoxlu qüsurlu ifadələr var. Məsələn, mən birini burada yazmışam: "Kolumbiya poeziyasına xəyal əhval-ruhiyyəsi bəxş etdi". Xəyal əhval-ruhiyyəsi necə olur?

İlqar Əlfi: - Mənasız cümlədir.

İrədə Musayeva: - Bəli, belə şeylər çoxdur bu nəşrlərdə, düzdür?

İlqar Əlfi: - Ola bilər. Oxumamışam mən, bir söz deyə bilmirəm.

İrədə Musayeva: - Yəni nə mənada deyirəm. Deyirəm ki, biz tutaq ki, indi bu özfaaliyyət tərcüməçilərini qoyuruq kənara. Ən ciddi bir nəşrdə də belə şeylər çox sıxsın qarşımıza çıxırsa, deməli, tərcümə tənqidçiliyində belə bir şey olmalıdır ki, bunları izləsin, bunları mütəmadi olaraq təhlilə cəlb eləsin. Nəcib Məhzunla Kamyu eyni intonasiya ilə tərcümə olunursa, deməli, yenə tərcümə problemi həll edilməyib...

İlqar Əlfi: - Sizə məsələnin canını deyim?

İrədə Musayeva: - Deyin.

İlqar Əlfi: - Məsələnin canı bundadır ki, bizdə redaktor institutu yoxdur. "Redaktoram" deyə bilən adam yoxdur. 20 illdir redaktə edirəm, amma redaktor deyiləm. Heç bundan sonra da ola bilmərəm. Bizdə tərcüməçi istər-istəməz tərcümə edilən mətnin təsiri altında olur. O redaktor deyil, o tərcüməçidir.

Elnarə Akimova: - Niyə hər şeyi redaktorun boynuna atırıq?

İlqar Əlfi: - Müthəq! Redaktorun boynuna atılmalıdır.

Elnarə Akimova: - Axı niyə tərcüməçi redaktora arxayın olub öz mətninə məsuliyyətlə yanaşmamalıdır?

İlqar Əlfi: - - Məsuliyyətlə yanaşmalıdır.

Elnarə Akimova: - Məsələn, mən bu yaxınlarda Etimad Başkeçidin müsahibəsində bir maqamı oxudum. Deyir, mən bir əsəri tərcümə eləmişdim və atmışdım bir kənara. Bir aydan sonra yenidən ona qayıtdım və gördüm ki, zay bir gündəlik, mən bunu bu şəkildə çıxarda bilmərəm ortaya.

İlqar Əlfi: - Bəli.

Elnarə Akimova: - Dediyim budur ki, bir insanın, bir tərcüməçinin içində bir etalon, bir meyar olmalıdır.

İlqar Əlfi: - Tərcüməçi 3 aydan sonra eyni əsəri götürsə, redaktə eləsə, məsələn, mənim etdiyim tərcümə Saramanqo çıxıb "Dünya ədəbiyyatı"nda, hamı da bəyənib guya. Mən indi oxuyuram, dəhşətə gəlirəm özüm. Bəli, özüm dəhşətə gəliram, çünki mən onda tərcüməçi idim, redaktor deyildim. Onu redaktor tutmalı idi. Ki, a bala, bu adam dilində deyil, bunu niyə yazmısan?

İrədə Musayeva: - İndi redaktor kimi baxırsınız.

İlqar Əlfi: - İndi götürürəm oxucu kimi baxıram görürəm ki, narahat edir adamı, görürəm ki, lazzət eləmir də.

İrədə Musayeva: - Deməli, problemlərdən biri redaktor problemidir.

İlqar Əlfi: - Bəli.

Elnarə Akimova: - Əsərlə birbaşa kontakta siz girirsiz axı. Redaktorluq tərcüməçidən sonrakı məsuliyyətdir. Təbii ki, tərcümə əsərinin redaktoru həm orijinal, həm də tərcümə dilini və tərcümə texnikasını tərcüməçidən də yaxşı bilməlidi?. Bu sahədə mütəxəssis tapmağın çətinliyi də məlumdur. Çünki çox vaxt mütəxəssis işinin maddi cəhətdən lazımi səviyyədə dəyərləndirilmədiyi üçün yaxşı redaktə etməyin marağında olmur. Çox vaxt nəşriyyatlar redaktorun adını elə-belə qeyd edirlər - gözdən pərdə əsmaq üçün. Yaxud bəzən tərcümə əsərlərinin redaktoru sadəcə korrektə ilə işini bitmiş sayır. Bu mənada, tərcüməni yalnız redaktorların vicdanına buraxmaq olmaz. Çünki əsərin tərcüməçisi kimi yazıları şəxsin məsuliyyəti ayrıdı.

İrədə Musayeva: - İlqar müəllim problem kimi birinci tərcümə tənqidçiliyi, ikinci redaktor problemini qabartdı. Yəni ən azından bu iki sahənin mütəxəssisinin real, obyektiv və məsuliyyətli fəaliyyəti və mövcud olması, simvolik yox, doğrudan bu işin içində olması zəruridir, demək... "Redaktor" anlayışı o qədər saxtalaşıb ki bizdə... Bir də görürsən, kitab nəşriyyata gedəndə kimsə kimsə zəng edir ki, filankas, istəyirəm sənin adını redaktor kimi kitabına yazım, nə deyirsən? O da kitabın özünü görmədən, məsuliyyətsizcəsinə deyir ki, "yaz, yaz, kitab çıxanda birini də mənə göndər". Bəzən heç kitabın adını da soruşmurlar...

Elnarə Akimova: - Biz nə qədər qəbul etməsək də, bu cür ciddi işləri yalnız redaktorların vicdanına buraxmaq olmaz - mütəxəssis stimul olmadan, əməyinin dəyərini yetərincə almadan ondan mükəmməl iş də gözləmək olmur. Üstəlik, siz de-

Davamı 18-ci səhifədə



Badii tərcümə məsələləri:

Əvvəli 17-ci səhifədə

yan kimi, nəşriyyatlar üçün tərcümə əsərlərinin keyfiyyətindan daha çox, kəmiyyəti maraqlıdır - kommersiya maraqları ədəbiyyatın maraqlarını üstələyir. Odur ki, onlar bu işlərə çox da ciddi yanaşmırlar.

Azər Turan: - Məsələ tərcüməçilikdən də, redaktorluqdan da, korrektorluqdan da daha ciddi bir mahiyyətdədir. Bu məsələdə daha önəmli olan tərcüməçinin elmi şəxsiyyətidir. Bilirsiniz ki, Əli bəy Hüseynzadə dünya poeziyasından, məsələn, yunancadan "Zəncirlənmiş Prometey"i, ingiliscədən "İtirilmiş cənnət"i və s. türkcəyə çevirib. Eyni zamanda Türkiyənin o zamankı Tərcümə Markazı Adam Smitin dünya çapında mühüm iqtisadi əsərini, dünya iqtisadiyyatının idarə olunmasına güclü təsir göstərmiş "Sərvəti-miləl"in tərcüməsini də Hüseynzadəyə tapşırıb. Yeri gəlmişkən, bir dəfə mən İstanbulda Feyzavər xanımın evində Əli bəyin istifadə etdiyi müxtəlif lüğətlərdəki qeydləri görüb heyrətləndim. Almanca-fransızca lüğətin hər iki sərtində həm almancasında, həm də fransızcada düzəlişlər və redaktələr etmişdi...

Vilayət Həcıyev: - Mən redaktorun olmasını, özü də çox ciddi ampuluda olmasını vacib sayıram. Gəlin prosesin özünü bir qədər təsəvvür eləyək. Xarici dildir - biz orada oxuyuruq cümləni. Tərcüməçinin əsas məqsədi ilk dəfə fikri tutmaqdır. Lap birinci fikri tutmaqdır ki, burada nə demək istəyib. Və fikri tutandan sonra onu ifadə vasitəsinə növbə gəlir, burda necə ifadə eləyib, söz seçimidir və s. İndi təsəvvür eləyin ki, Markesdən və ya başqasından, Hessedən hər hansı bir cümləni tərcümə eləmək üçün tərcüməçi onu 10 dəfə, 15 dəfə oxumalı olur. Və istər-istəməz o fikir öz ana dilində onda öz-özünə doğmalaşır. Bu elə bilir ki, bu fikri başa düşübsə, onu düz də ifadə eləyir.

İlqar Əlfi: - Ay sağ ol! Ürəyimdən xəbər verirsiniz...

Vilayət Həcıyev: - Mən bir dəfə də demişəm, tərcüməçi bir cümləni on dəfə oxuya bilər, burada problem yoxdur. Əsas odur ki, ela çatdırmalıdır ki, oxucu birə dəfə oxusun, təzədən bir də qayıdıb oxumasın. Ən böyük problem buradadır. Redaktor neyləyə bilər? Redaktor tərcüməçinin əvəzinə tərcümə eləmənlidir. Ancaq elə məsələlər var ki, doğrudan da, orada redaktor lazımdır. Çünki hər bir tərcümə olunmuş mətn tərcüməçinin özünə o qədər doğmalaşır ki, o ela bilir ki, düzdür. Ən azı onun beyninə o fikir formalaşıb. Onu bir yad adam, yəni bu hadisələrdən, prosesdən uzaq olan adam oxuyanda o dəqiqə başa düşür ki, bu düz eləməyib. Məsələn. Günel Mövlud - "Yüz illik tənhalığı". Tərcüməçi işi normalıdır. Amma orada belə bir cümlə var ki, "onu vahşi heyvanların ağzından qurtardım". Redaktor o dəqiqə bilardi ki, burada ağızdan söhbət getmir, "cəngindən" demək istəyir. Adi bir şeydir ha. Yaxşı redaktor olsaydı, deməliydi ki, ay azizim, Günel xanım, Azərbaycan dilində heç vaxt deyilmir ki, "vahşi heyvanın ağzından qurtardım". Olmalıdır "cəngindən qurtardım".

İlqar Əlfi: - Bəli. Amma tərcüməçi işi normalıdır.

İradə Musayeva: - Doğrudur. Günel Mövludun "Yüz illik tənhalıq" əsərini tərcüməsi ilə bağlı mən də bir məqaləmə yazmışam. O, Markesi anlayaraq tərcümə edib. Özü də ela çətin bir əsərini...

Vilayət Həcıyev: - Sonra. Məsələn, haqqında xoş söz dediyim Kifayətin tərcüməsini götürək. "Demyan"da belə bir şey var ki, qapının ağzında gerb var, bu gerbdə qırğı təsvir olunub. Əzizim, heç vaxt Azərbaycan dilində "qırğı" demirlər, orada qartaldan gedir söhbət. Yəni bu sırf redaktor işidir. Tərcüməçi bunu başa düşməyə bilər. Çünki o proses elədir ki, inanın, man təəvvür eləmirəm ki, orada nəyisə bir-birindən ayırmaq ola. Doğrudan, çətin olur. Amma bunu redaktor o dəqiqə tapa bilərdi. Daha sonra. Elə fikirlər var ki, onları ifadə etmək, azərbaycanlıdır-mı üçün mütləq redaktor lazımdır. Azərbaycan dilini gözəl bilən adam lazımdır.

Elnarə Akimova: - Vilayət müəllim, belə çıxır ki, tərcümənin bu gün sintaktik konstruksiya problemi var daha çox.

Vilayət Həcıyev: - Əlbəttə, var

İradə Musayeva: - Vilayət müəllim, indi ki yeri düşdü, bir söz deyim. Mən oxucu kimi deyirəm, doğrudan da, Remarkın "Zəfər tağı" əsərini çox gözəl tərcümə eləmisiniz. Belə tərcümələri oxuyanda doğrudan adam qürur hissi keçirir. Çox zövqlə oxudum və əsər haqqında məqalə yazmışam, Ümumiyyətlə, Remark və remarkizm haqqında. "Ədəbiyat qəzeti" üçün, böyük, ikihissəli məqalədir. 16-17 səhifə. "Remark və remarkizm". Yox, sizlə bağlı deyil, yəni, tərcümə məsələsi təhlil edilmir. Edilsə də yalnız minnətdarlıq hissi ilə nəsə yazıla bilər... Mən oxuyanda hamışı qeydlər götürürəm, indi yeri gəldi deyirəm. Icaza versənə, bəzi qeyri-dəqiq hesab etdiyim məqamları birlikdə açardıq. Çünki bu ortam bir da çətin yarana, bu müzakirə tarixi bir fürsətdir mənca...

Vilayət Həcıyev: - Buyurun, buyurun! Xoş olar mənimçün.

İradə Musayeva: - Yəni redaktor olsa, sizin bu cümlələrə necə baxar. Çox az qüsurlar var.

Vilayət Həcıyev: - Çox maraqlıdır ki, üç dəfə çap olunub, üçünda bə hamı eyni şəkildə yerib. Bir adam onu oxuyub bitirmir. Qüsurları demir, amma mənim üçün vacib və maraqlıdır, haqiqətən...

İradə Musayeva: - Baxın, mənsə, belə bir cümlə var: "Veberin qəbul otağı ağzına kimi qədimi, qızıl haşiyəli, kövrək mebellə dolu idi".

Vilayət Həcıyev: - "Kövrək" gülüncdür, gülünc...

İradə Musayeva: - Görürsənüz, indi redaktor olsaydınız, durub deyardinız. Yəni bu ifadənin yalnışlığını daha tez tapardınız.

Vilayət Həcıyev: - Mən "kövrək" bəyəndə nəyi nəzərdə tutmuşam, yəni "zərif".

İradə Musayeva: - Sonra belə bir cümlə var: "Hələ yox, beyninin harasısa bələ oyaqdır, həm oyaq, həm da buz kimi". Daha sonra deyir ki, "xəstələr hakimə böyük qonorar verirdi".

Vilayət Həcıyev: - Bunlar ikisi da normaldır.

İradə Musayeva: - Qonorar. Biz deyirik ki, hakim xəstədən pul alır. Qonorar burada, mənca, düzgün deyil.

Vilayət Həcıyev: - Düzdür, düzdür. Orada qonorar görülən işə görə haqdır.

İlqar Əlfi: - Bizim mənamızdakı kimi yaziya görə deyil. Futbol oynamağa görə da qonorar ala bilərsən.

İradə Musayeva: - Bu çox qəribə gəldi. Məsələn, biz mühəndisə haqq vermək istəyəndə, şəxsi işimizlə bağlı - deyə bilərik ki, mühəndisə qonorar verdim? Adətən deyirik ki, haqqın verdim, pulunu verdim. Dövlətin yox, şəxslərin verdiyi haqq - qonorar ola bilər? Yenə deyirəm, mənə oxu prosesində qəribə gəldi və həyatda heç vaxt eşitmədiyim sözdür, yəni həkim-xəstə münasibətindəki pul məqamında.... Inanmıram bizlərdən, elə burdakılardan kimsə desin ki, "gedim hakimin qonorarını verim gəlim". Desə da istehzalı, kinayəli kimi görünəcək. Hər halda, Azərbaycan danışıq dili, məişət dili mənzərəsi, hətta ədəbi dilimiz da, mənca, bunu qəbul etməyib hələ... Sonra, daha bir cümlə: "Gülümsəyərək sünü buxarının yanındakı divanda oturdu".

Vilayət Həcıyev: - Yəni qondarma, maketidir, özü deyil. Ha, tapmaq lazımdır o sözü.

İradə Musayeva: - Amma düzgün deyil da "süni buxarı".

Vilayət Həcıyev: - Mənim indi özümə da gülünc gəlir. Düzdür.

İradə Musayeva: - Coxdur burada. "O qız Ravik üçün tilsimləbənzər bir şey idi". Yəni oxucu qayıdır da bunun üstünə. Təxəyyül həzm eləmir, havadan asılı qalır. Belə istisnalar o cür mükəmməl tərcümə mətninda yad görünür.

İlqar Əlfi: - Bunlar sırf redaktorluqdur, tərcüməçilik deyil.

İradə Musayeva: - Yəni belə şeylər burada var. Oxucu mətnlə üz-üzə qalanda redaktor, yoxsa tərcüməçi? - dilemmasi haqda düşünmür, onu zövq və təsir maraqlandırır...

İlqar Əlfi: - İradə xanım, o qeydlərinizdə mənim tərcümələrimdən də bir şey var?

İradə Musayeva: - Var, hamınızdan götürmüşəm, Zahid Sarıtorpaqdan da götürmüşəm, Coysu tərcüməsindən. "Uliss"dən... Təəssüf ki gələ bilmədi bu gün müzakirəyə, amma imkan eləyib onun da tərcüməsinə toxunacam...

Elnarə Akimova: - Seyfəddin müəllimə söz verək. Seyfəddin müəllim, bir neçə il əvvəl siz "oxu zalı"nda silsilə yazılarla çıxış etdiniz. O yazıların bir effekti oldumu, sizcə? Bu günün prizmasından Seyfəddin Hüseynli yenidən tərcümə problemləri ilə bağlı məqalə yazmağa çalışsa, yeni hamin boşluqlar qalırmı?

Seyfəddin Hüseynli: Effekt oldu. Birinci ona görə oldu ki, mən oradan yaxşı qonorar aldım. Haqiqətən da.

İlqar Əlfi: - Ən böyük effekt...

Seyfəddin Hüseynli: - Və o məsələ gündəmə gəldi, ən azı ictimai müzakirəya çıxdı. Sonra bir çox debatlar təşkil olundu, müzakirələr keçirildi, istər radiosunun özündə, istər başqa media qurumlarında, İrədə xanım yazılar yazdı, ela bil ki, haqiqətən, müəyyən bir pəncərə açıldı, o pəncərədən biz baxdıq gördük ki, artıq xeyli fəallaşmış tərcümə industriyasında bizim nə qədər çatışmazlıqlarımız var. Amma çox təəssüf ki, bu çatışmazlıqlarla bağlı biz əsasən elə həmin nöqtədə qalmışıq. Əsasən bunu dil problemi ilə əlaqələndiririk. Amma bu dil problemində mənca, biz 4-5 il əvvəldən artıq o məsələ ki, gəldi gündəmə, müzakirə olundu, onda başa düşdük səbəblər nədir, yəni bütün bu məsələlərə orada toxunulmuşdu. Ondan sonra da toxunuldu başqa-başqa müəlliflər tərafından ki, bu dil qüsurlarının oxucuya qədər gəlib çıxması əslində bu industriyanın bütün digər sahələrində təkərcik və vintciklərin düz işləməyindəndir. Yəni bu nədir. Birincisi, bizdə təxminən deyək, bəzi eksperimentləri çıxaq, amma sistemli bu işə başladığımız Abbas Səhhət dövründən bəri bu məsələdə ki, entuziazm rol oynayırdı, o entuziazm o vaxt yəni qonorarsız, filansız nəyin hesabına, hansı mənəvi gücün hesabına o işlər o işi görürdülər, bu heyrətamiz bir şey idi. O marhələ getdi. Sonra sovet dövründə ki, bu məsələ, belə deyək da, maktab filan yaranmadısa da, ən azı bir entuziazma ehtiyac yox idi, çünki sifarişlər verilirdi, çox da yaxşı qonorarlar verilirdi, bir çox yazıçılar hətta ifadə eləya bilmədikləri mətlabləri orada tapırdılar, o cür ifadə edirdilər. Belə bir müəyyən bir enerjinin xərclənməsi və bir çox badii əsərlərin Azərbaycan dilinə qazandırılması prosesi baş verdi. Amma sonra 90-cı illərdə o mənəvi ehtiyacdanmi, filanmı görülən təzədən sövqlə görülən işlər vardı, bir müddət keçəndən sonra çevrildi sözün mənfi mənasında özfəaliyyətə. Məsələ özfəaliyyətə döndü və burada sistem anlayışı meydana gəlmədi. Niyə gəlmədi? Çünki bayaq dediyim kimi, bu istər qurum halında özfəaliyyətə çevrilmişdi, nəşriyyatdan alınmışdı, istər ayrı-ayrı tərcüməçilər halında. Və çox təəssüf ki, bizim oxucu da özfəaliyyətə meylli oxucudur. Yani birplanlı, müəyyən bir məsələhət-lər əsasında ki, biz indi görürük tez-tez kitab siyahıları, roman siyahıları verilir, nə oxuyaq. Əvvəl 90-cı illərdə sifariş edirdin kaset, mahnılar siyahısı. Onda bu kitab siyahısı mənimçün yığ. İndi təzə-təzə bizdə roman məsələsində mütəlidə bu sistem gəlir öz yerinə oturur. Amma oxucumuz da keyfiyyətli mahsul istəmədi. Məsələ bundadır. Elə nə düşdü, kasıbın olanından oxundu. Və burada qəribə bir konveyer üsulu lazımdır. Çünki, O nəşriyyatlar ki, sağ olsunlar xeyli əsərlər bizə qazandırdılar, amma orada müəyyən bir marhələdən sonra filtrasiya olmalı idi, bir çox tərcümələr süzgədən keçirilməli idi, ən azı ədalətli qonorar sistemi qurulmalı idi. Hələ bir çox yerlərdə redaksiya şurası yaradılmayıb. Nəinki hökumət qurumlarında, hətta özəl nəşriyyatlar da hey olmasa öz prestiji üçün, müəyyən işlərinə xeyir-dua almaq üçün, ictimai rəyi öz xeyrinə dəyişmək üçün o redaksiya şuralarını yaratmalı idi, orada bir neçə sanbalılı və hey olmasa bizim realliqda aşağı səviyyə haqqı ilə o işləri, o nəzarət mexanizmini həyata keçirən insanlar oturdulmalı idi. Bu olmadı. Bu olmayanda nə gəldi axırda oxucunun əlinə? Bizim bu gün belə deyək da "pinsetla" axtarılı nəzərə tapmağımız hələ də davam edir, ona görə ki, bizim real gördüyümüz budur. Biz nəşriyyatların bu işi necə qurduğuna gedib baxa bilmirik. Bizi oraya ya buraxmırlar, ya da biz marağında deyilik. Bir çox hallarda qərəzli görünməkdən qorxuruq. Nəticədə nə var əldə? Əldə var İrədə xanımın əlindəki o nöqsanlar ki, biz bu gün Azərbaycanda almandilli ədəbiyyatdan kitabxana yaratmış bir kişini məcburuq yenə kimlərinsə günahı ucbatından, bu sənayenin düzgün qurulmaması ucbatından suçlamağa. Mən belə deyim da, Türkiyədə almandilli ədəbiyyatda Ahmet Cemaldı, burda bu kişidir. Bizsə bunu bir cümləya gərə çəkirik mahşər ayağına.

İradə Musayeva: - Allah eləməsin, qətiyyən...

Seyfəddin Hüseynli: - Yox, ola bilsin mən də olsam, eləyərəm onu. Bilirsiniz, bu tərcümə tənqidinin dil ilə bağlı xüsusi bir yeridir. Hələ orada ilişmişik, günah da heç kəsdə deyil. Tərcümə, Rüstəm müəllim, elm ola bilmir. Amma tərcümənin prinsipləri ki, var, biz o prinsipləri da yeri gələndə ümumi panoram halında görmürük, onları işimizdə əvvəldən tətbiq eləmirik. Bütün məsələlər gəlib çıxır artıq konyunktorlaşmış, demaqoqlaşmış ana dilimizin namusunu çəkmək məsələsinə. Bir dənə qalır bizim son sığınacaq yerimiz ki, ana dilimiz əldən gedir. Amma məsələ nədir? Məsələ odur ki, tərcümə olunanları artıq müəyyən bəxşıdan keçirməliyik, kimlər tərcümə olunmalıdır.

İrədə Musayeva: - Doğrudan, qəribədir. Tərcümə sırf dil məsələsidir, dildən danışanda ki, filan tərcümənin dilində filan cümlə, filan ifadə, filan fikir düz işlədilməyib, hətta bütün kitab zay tərcümə nümunəsidir, belə irədla rastlaşmalı oluruq. Yəni, sanki "dil sonranın söhbətidir!" - anlamında. Mənca, əksinə, dilin başlanır bütün tərcümə söhbətləri... Siz maddi dastək, yaşıl redaktor, əla tərtibat və reklam və s. - hər şeyi qazana bilərsiniz, bu təmtəraqlı, gözəl dizaynlı kitabı açıb onun mahiyyətinə üz tutanda diksinib çəkiləcəksinizsə, bayaqdan saydıqlarım əridi getdi... Bütün tərcümələrdə mahiyyət dildədir, dilə bağlanıb dilla da bitir. Vilayət Həcıyev kimi mükəmməl tərcüməçiləri, gördüyümüz kimi, birca sözün, birca sətrin qeyri-dəqiq tərcüməsi da narahat edir və bu iradı dəyən olanda təşəkkür edir, qəzəblənmir. Çünki işin, ümumi ədəbiyyat, tərcümə işinin keyrinədir, bu qarşılıqlı anlaşma mədəniyyəti...

Elnarə Akimova: - Balkə biz kimlər tərcümə olunmalıdır məsələsinə də nəzər yetirək? Orada, Azərbaycan oxucusuna kimi ötürək, məsələn?

Seyfəddin Hüseynli: - Üzr istəyirəm. Balkə dünya ədəbiyyatını regionlar üzrə bölək. Bir diferensiallaşma getsin orada.

Rüstəm Kamal: - Balkə hep bizə, məsələn, Kafka lazım deyil, bizim mədəniyyətimiz üçün. Ola bilsin. Məsələn, mən müəllifəm da belə. Yəni mədəniyyətin dövriyəsi üçün, milli mədəniyyətin formalaşması üçün ola bilsin ki, Kafka çox önəmli deyil, məsələn, Çin poeziyasından tərcümələr, məsələn deyirəm, daha təsirli ola bilar. Orta əsrlərdə Qurani-Kərim tərcümə olundu, Üzun Həsən dövründə. Hətta Dədə Qorquda da "pinsetla" axtarılı nəzərə tapmağımız hələ də davam edir, ona görə ki, bizim real gördüyümüz budur. Biz nəşriyyatların bu işi necə qurduğuna gedib baxa bilmirik. Bizi oraya ya buraxmırlar, ya da biz marağında deyilik. Bir çox hallarda qərəzli görünməkdən qorxuruq. Nəticədə nə var əldə? Əldə var İrədə xanımın əlindəki o nöqsanlar ki, biz bu gün Azərbaycanda almandilli ədəbiyyatdan kitabxana yaratmış bir kişini məcburuq yenə kimlərinsə günahı ucbatından, bu sənayenin düzgün qurulmaması ucbatından suçlamağa. Mən belə deyim da, Türkiyədə almandilli ədəbiyyatda Ahmet Cemaldı, burda bu kişidir. Bizsə bunu bir cümləya gərə çəkirik mahşər ayağına.

İrədə Musayeva: - Allah eləməsin, qətiyyən...

Seyfəddin Hüseynli: - Yox, ola bilsin mən də olsam, eləyərəm onu. Bilirsiniz, bu tərcümə tənqidinin dil ilə bağlı xüsusi bir yeridir. Hələ orada ilişmişik, günah da heç kəsdə deyil. Tərcümə, Rüstəm müəllim, elm ola bilmir. Amma tərcümənin prinsipləri ki, var, biz o prinsipləri da yeri gələndə ümumi panoram halında görmürük, onları işimizdə əvvəldən tətbiq eləmirik. Bütün məsələlər gəlib çıxır artıq konyunktorlaşmış, demaqoqlaşmış ana dilimizin namusunu çəkmək məsələsinə. Bir dənə qalır bizim son sığınacaq yerimiz ki, ana dilimiz əldən gedir. Amma məsələ nədir? Məsələ odur ki, tərcümə olunanları artıq müəyyən bəxşıdan keçirməliyik, kimlər tərcümə olunmalıdır.

İrədə Musayeva: - Doğrudan, qəribədir. Tərcümə sırf dil məsələsidir, dildən danışanda ki, filan tərcümənin dilində filan cümlə, filan ifadə, filan fikir düz işlədilməyib, hətta bütün kitab zay tərcümə nümunəsidir, belə irədla rastlaşmalı oluruq. Yəni, sanki "dil sonranın söhbətidir!" - anlamında. Mənca, əksinə, dilin başlanır bütün tərcümə söhbətləri... Siz maddi dastək, yaşıl redaktor, əla tərtibat və reklam və s. - hər şeyi qazana bilərsiniz, bu təmtəraqlı, gözəl dizaynlı kitabı açıb onun mahiyyətinə üz tutanda diksinib çəkiləcəksinizsə, bayaqdan saydıqlarım əridi getdi... Bütün tərcümələrdə mahiyyət dildədir, dilə bağlanıb dilla da bitir. Vilayət Həcıyev kimi mükəmməl tərcüməçiləri, gördüyümüz kimi, birca sözün, birca sətrin qeyri-dəqiq tərcüməsi da narahat edir və bu iradı dəyən olanda təşəkkür edir, qəzəblənmir. Çünki işin, ümumi ədəbiyyat, tərcümə işinin keyrinədir, bu qarşılıqlı anlaşma mədəniyyəti...

Elnarə Akimova: - Balkə biz kimlər tərcümə olunmalıdır məsələsinə də nəzər yetirək? Orada, Azərbaycan oxucusuna kimi ötürək, məsələn?

Seyfəddin Hüseynli: - Üzr istəyirəm. Balkə dünya ədəbiyyatını regionlar üzrə bölək. Bir diferensiallaşma getsin orada.

Rüstəm Kamal: - Balkə hep bizə, məsələn, Kafka lazım deyil, bizim mədəniyyətimiz üçün. Ola bilsin. Məsələn, mən müəllifəm da belə. Yəni mədəniyyətin dövriyəsi üçün, milli mədəniyyətin formalaşması üçün ola bilsin ki, Kafka çox önəmli deyil, məsələn, Çin poeziyasından tərcümələr, məsələn deyirəm, daha təsirli ola bilar. Orta əsrlərdə Qurani-Kərim tərcümə olundu, Üzun Həsən dövründə. Hətta Dədə Qorquda da "pinsetla" axtarılı nəzərə tapmağımız hələ də davam edir, ona görə ki, bizim real gördüyümüz budur. Biz nəşriyyatların bu işi necə qurduğuna gedib baxa bilmirik. Bizi oraya ya buraxmırlar, ya da biz marağında deyilik. Bir çox hallarda qərəzli görünməkdən qorxuruq. Nəticədə nə var əldə? Əldə var İrədə xanımın əlindəki o nöqsanlar ki, biz bu gün Azərbaycanda almandilli ədəbiyyatdan kitabxana yaratmış bir kişini məcburuq yenə kimlərinsə günahı ucbatından, bu sənayenin düzgün qurulmaması ucbatından suçlamağa. Mən belə deyim da, Türkiyədə almandilli ədəbiyyatda Ahmet Cemaldı, burda bu kişidir. Bizsə bunu bir cümləya gərə çəkirik mahşər ayağına.

real mənzərə və problemlər

təkcə dil və ədəbiyyat məsələsi, hadisəsi deyil, həm də ictimai-siyasi, sosial hərəkətlilikdir...

Rüstəm Kamal: - Bəli, həm də ideoloji məsələdir...

Seyfəddin Hüseynli: - Üzr istəyirəm, Rüstəm müəllim. Olar mən davam edim? Fikirlərimi deyim. Çıxış yolundan söhbət getdi. Bilirsiniz, dünyanı bəlkə dillər üzrə qruplaşdırmalıyıq. Tutaq ki, Latın Amerikası ədəbiyyatı, ispandilli ədəbiyyat bir qruplaşdırılıb tərcümə olunmalıdır, sistemli şəkildə, ingilisdilli ədəbiyyat, Şərq dilləri, yapon, bizim özümüzə yaxın olan bu ərəb-fars dilləri mühiti tərcümə olunmalıdır. Yaxud deyək ki, skandinav ədəbiyyatı. Bəlkə belə yanaşaq. Rüstəm müəllim deyən məsələ mənə belə gəlir ki, bir az ideoloji yanaşmadır. Yəni ki, artıq bəsdir bu Kafka hazınliyi, hüznlüyü - filanı. Dünyada bu başda böyük ədəbiyyat yaranıb, qulaqlımızın dibində. Rəhmətlik Arif Abdullazadə demiş, bu boyda XX əsr yanımızdan ötüb getdi, xəbərimiz olmadı. Mən bir detallaşdırım bunu. Yazıçılar Birliyinin Bədii tərcümə və ədəbi əlaqələr mərkəzi - biz "Dünya ədəbiyyatı" jurnalının yenidən nəşrinə başlayanda fikirləşdik ki, imkan olan qədər bir ölkənin ədəbiyyatı halında ki, bunu dünyada aparıcı elədilər jurnallar, məsələn, böyrümüzdəki "Inastranka" bunu eləyir, dünya ölkələrinin ədəbiyyatını ayrı-ayrı buraxılışlar halında verək ki, qoy mənzərəni bütöv görmək olsun. Ən azı bir 60 faiz görmək olsun.

Elnarə Akimova: - Bəli, mən xatırlayıram, "Kitabçı" jurnalında "Serbiya xüsusi əlavəsi" hazırlanıb təqdim olunmuşdu. Ən azı, çağdaş Azərbaycan oxucusuna müasir Serbiya ədəbiyyatı ilə bağlı zəngin məlumat götürülürdü.

Seyfəddin Hüseynli: - Təxminən elə bir şeyi biz "Dünya ədəbiyyatı"nda eləyirik. Artıq Rusiya sayı çıxıb, birinci Ukrayna sayı çıxmışdı. Yəni biz böyük həcmdə üç yüz neçə sahifəlik jurnal buraxırıq, tam halda bir ölkədən vərə bilmirik. Həm də bir balaca, bilirsiniz, material sarıdan da müəyyən sıxıntılar olur. Amma son nömrəniz olduu, bu yaxınlarda işıq üzü gördü - İran ədəbiyyatı. İndi öyünmək kimi çıxmasın, bir məsələni deyim ki, sırf orijinaldan tərcümə olunmuş və özünü fars ədəbiyyatı, farsdilli yazıçı kimi identifikasiya edən müəlliflərdir. İstisnasız olaraq. Və bu 80 ilin fars ədəbiyyatıdır. Bu nəyə hesablanıb? Bizim bizim özümüzün işi prosesinə nə verdi? Bizim hörmətli şərqşünasımız Məsiağa müəllim, mərkazin sədri Səlim Babullaoğlu və mən bir qrup halında müəyyən axtarışa çıxandan sonra məlum oldu ki, Azərbaycanda bir 5 nəfər fars dilini və ana dilini çox gözəl şəkildə və rahat kommunikasiya qura biləcək şəkildə, yazılı kommunikasiyadan gedir söhbət, bilir. Belə tərcüməçilərimiz var. Yaşca kiçiyinin 22 yaşı var və nisbətən yaşlı nəsil Ağabala müəllim var, Məsiağa müəllim var. Bunlar üzə çıxdı.

Elnarə Akimova: - Bunlar mütərəqqi işlərdir təbii, dəstəkləmək və davam etdirmək lazımdı.

Seyfəddin Hüseynli: - Yəni elementar bir cəhdə tərcümə işinin nə qədər müsbət tərəfləri ortaya çıxdı. Və onlara şükürlər olsun ki, bizim öz büdəməmin imkanı ilə, belə deyək da, bir balaca sirr deyim, bir ədəbiyyat həvəskarının ianəsi ilə bizim müəhit üçün normal da qonorar verdik. Nəticədə nə oldu? Hamı qazandı. Üzr istəyirəm bu işi dediyim üçün. Bilirəm ki, bizim müəhitdə belə informasiyalar yayılmır. Biz jurnalları da çətinliklə satırıq, oxucu toplamaq filan da və s. Bu iş görüldü.

Vilayət Həcıyev: - Nə xəyt çıxıb?

Seyfəddin Hüseynli: - Bu jurnal artıq il yarımdır çıxıb və fars ədəbiyyatı sayı 15-20 gün bundan qabaq çıxıb. Bilirsiniz, mən tərcümə tənqidi ilə məşğul olmuşam epizodik halda, amma artıq tərcümə işinin funksioneriyəm. Ona görə məcbur oldum öz işimdən danışam və ayanı şəkildə göstərəm ki, sadəcə ümumi bir düz xətt, ana xətt götürülənə heç olmasa nisbi düzlük götürülənə onun ətrafında çoxlu şaxələr da o səmtə yönəlir, nəticədə tərcümə işi bütöv bir sistem halında bir çırpınışla irəli gedir. Amma o mətnlərin çəkisinə görə, bunlar heç birimin dili qəlz deyildi.

Rüstəm Kamal: - İndiki dövr üçün bir qədər qəlizdir.

Azər Turan: - "Bədbəxt o qədər olmaz idi bir zaman ki..." Etsəydin agar nurişəmani ona pünhan; / Əql ismini vermiş başar ol nura dilinda, / Heyvanlığ lakin gözəl adətdir alında". Nəyi qəlizdir ki bunun?

Seyfəddin Hüseynli: - Azər müəllim, burada bir məsələ var. Başqa tərcümə varsa, qoyaq ortaya, amma bu ela bir lokal bir hadisə olacaq ki. Əli bəy Hüseynzadə onu tutaq ki, kütlə üçün, geniş auditoriya üçün nəzərdə tutmamışdı, özü da onun həm də ifadə tərzi idi, cümlə qurulışu idi - filan. Amma sovet dövründəki tərcümə bir az partiya-ideoloji cəhətdən, bir az da ela doğrudan, o ədəbiyyatın xalq işi olması baxımından, sözün yaxşı mənasında, daha anlaşılıdır. Bu əsərlə ünsiyyət qurmaq daha asan gəlir. Qoy orada adım dilinin müəyyən prinsipləri gözlənilməsin və s. Yadınızdadır, orada məşhur hissə var: "Ənzari-şəbabımda padidar olan ey zül, /Ey zilli-tülual oluyorsın yenə peyda". Vallah, tərcəmən tərcüməyə ehtiyacı var. Amma Azər Turan üçün, əlbəttə, o daha yaxşıdır. Əvvəla intonasiyası ...

Azər Turan: - Seyfəddin müəllim, Hüseyn Cavid da bu intonasiyanı tətqdir edirdi, Cavid eyni misraların Mikayıl Rəfili tərəfindən tərcüməsini Əli bəyin qəlizdəkləri tərcüməsi ilə qıyaslandırmışdı. Rəfilidə belə idi: "Ganclıyımda gördüyüm ey dumanlı kölgələr! /Yena peyda oldunuz bu tutqun nəzərimdə". Hüseyn Cavid hər iki tərcümə misralarını yanaşı gətirib, Əli bəyin yorumunu yerin musiqisinə, misra vaxninə, fəksafi sıqlətinə görə tətqdir edib. Rəfilinin çevirisindəki təəkkür tərzinin isə Hötəyə və "Faust"a müvafiq olmadığını söylayıb.

Seyfəddin Hüseynli: - O qəlzi tərəddən tərcümeyə, biz ela hədda gəlmərliyik ki, çoxvariantlığa keçə bilək.

Vilayət Həcıyev: - "Faust" almanların özü üçün da çətindir. Ümumiyyətlə, başadışülməzdir. Hamı üçün başa düşülməzdir "Faust". Ola bilsin özü yaxşı başa düşüb müəllif, haqiqətən...

Azər Turan: - Əhməd Cəmil "Faust"u ruscadan tərcümə edib da.

Vilayət Həcıyev: - Birinci bisə Nazakət xanımın orijinaldan sətri tərcüməsi əsasında çevirilib.

Davamı növbəti sayımızda